

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 120 (21.272)

19 iyun 2015-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## 2015-ci ilin yanvar-may ayları üzrə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Cari ilin yanvar-may aylarında muxtar respublikada 838 milyon 241 min manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2014-cü ilin yanvar-may ayları ilə müqayisədə 5,4 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2014-cü ilin yanvar-may ayları ilə müqayisədə 5,9 faiz artaraq 1902,5 manata çatmışdır.

* * *

Muxtar respublikada yaradılan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 393 milyon 990 min manat həcmində məhsul istehsal edilmişdir ki, bu da 2014-cü ilin müvafiq dövründəki göstəricini 3,3 faiz üstələmişdir.

* * *

Yeni istehsal və xidmət sahələrinin yaradılması, infrastrukturun yenilənməsi istiqa-



mətində cari ilin yanvar-may ayları ərzində muxtar respublikada əsas kapitala 422 milyon 872 min manat həcmində investisiya yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 2,4 faiz çoxdur. Əsas kapitala yönəldilmiş investisiyaların 365 milyon 96 min manatı və ya 86,3 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2015-ci ilin yanvar-may aylarında informasiya və rabitə xidmətlərinin həcmi 19 milyon 181 min manat olmuşdur ki, bu da 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 2,1 faiz çoxdur. Bu müddət ərzində mobil rabitə xidmətlərinin həcmi 15 milyon 961 min manat olmaqla, bir il öncəki göstəricini 1,3 faiz üstələmişdir.

* * *

Cari ilin yanvar-may ayları ərzində 44 milyon 769 min manat həcmində kənd tə-



sərrüfatı məhsulu istehsal olunmuşdur. Bu da 2014-cü ilin müvafiq dövründəki göstəricini 6,5 faiz üstələmişdir. Bu dövr ərzində muxtar respublikada 8,2 min ton ət (diri çəkidə), 34 min ton süd istehsal edilmiş, 2014-cü ilin yanvar-may ayları ilə müqayisədə ət istehsalı 7,4 faiz, süd istehsalı 1,2 faiz artmışdır.

* * *

Əhali gəlirləri üzrə müsbət dinamika davam etməkdədir. Cari ilin yanvar-may aylarında muxtar respublikada əhalinin gəlirləri 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 4,7 faiz artaraq 645 milyon 203 min manat, onun hər bir nəfərə düşən həcmi isə 3,7 faiz yüksələrək 1464,4 manat təşkil etmişdir.

* * *

2015-ci ilin yanvar-may aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği 392,4 manat təşkil etmiş və bu göstərici əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,2 faiz artmışdır.

* * *

Muxtar respublikada bank sektorunun fəaliyyəti ümumi inkişafa uyğun olaraq genişlənməkdədir.

1 iyun 2015-ci il tarixə muxtar respubli-



kanın banklarında açılmış bank hesablarının sayı 43745-ə çatmışdır ki, bunun da 40154-ü və ya 91,8 faizi aktiv hesablardır. 2015-ci ilin yanvar-may aylarında açılmış 5493 bank hesabı aktiv hesablar olmuşdur.

Qeyd olunan dövrdə muxtar respublikada 116 POS-terminal quraşdırılmış və bu göstərici 1 iyun 2015-ci il tarixə 983-ə çatdırılmışdır.

* * *



Muxtar respublika iqtisadiyyatının inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə də müsbət şərait yaratmışdır. Cari ilin yanvar-may aylarında muxtar respublikada 141 milyon 845 min Amerika Birləşmiş Ştatları dolları həcmində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın həcmi son bir il ərzində 3,2 faiz artaraq 122 milyon 829 min Amerika Birləşmiş Ştatları dollarını ötmüş, idxalın həcmi isə 60 faiz azalaraq 19 milyon 15 min Amerika Birləşmiş Ştatları dolları həcmində olmuşdur. Xarici ticarət üzrə 103 milyon 814 min Amerika Birləşmiş Ştatları dollarından artıq həcmdə müsbət saldo yaranmışdır.

* * *

2015-ci ilin yanvar-may aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 36252,1 min manat məbləğində kreditlər verilmişdir ki, bu da 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 55,2 faiz çoxdur.

* * *

Bu ilin qeyd olunan dövründə muxtar respublikada bütün sığorta növləri üzrə daxilolmalar 2319 min manat olmuşdur ki, bu da 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 179 min manat və ya 8,4 faiz çoxdur.

* * *

2015-ci ilin yanvar-may aylarında muxtar respublikaya 141 min 867 nəfər turist gəlmişdir ki, bu da 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 3,2 faiz və ya 4441 nəfər çoxdur.

* * *



1 may 2015-ci il tarixə muxtar respublikada əhalinin sayı bir il öncəyə nisbətdə 4394 nəfər və ya 1 faiz artaraq 441027 nəfər təşkil etmişdir.

**Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti**

## Dövlət Sosial Müdafiə Fondunun bütün sahələri avtomatlaşdırılıb

***Ölkəmizdə sosial müdafiə sisteminin beynəlxalq standartlar əsasında keyfiyyətcə yenidən qurulması və sığorta-pensiya sistemində pensiyaların artırılması mexanizminin bazar iqtisadiyyatının tələblərinə uyğun tətbiq edilməsi mövcud maliyyə imkanlarının bütün pensiyaçılar arasında ədalətli və şəffaf bölgüsünə imkan verib. Muxtar respublikamızda da bu məsələlər diqqət mərkəzində saxlanılıb.***

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu və onun yerli orqanlarında müasir standartlara cavab verən avtomatlaşdırılmış iş yerləri təşkil olunub, lokal şəbəkələr mərkəzi informasiya sisteminə birləşdirilərək fondun ümumi korporativ şəbəkəsi formalaşdırılıb. Əhaliyə və sığortaedənlərə göstərilən xidmətlər müasirləşdirilərək bu sahədə elektron xidmətlərin tətbiqinə şərait yaradılıb və informasiya texnologiyalarının imkanlarından istifadə etməklə, demək olar ki, fondun bütün sahələri avtomatlaşdırılıb.

Fonddan aldığımız məlumata görə, "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 15 iyul tarixli Fərmanının icrası ilə əlaqədar Dövlət Sosial Müdafiə Fondunun internet saytının ***(www.dsmf.nakhchivan.az)*** yaradılması nəticəsində məcburi dövlət sosial sığortahaqqı ödəyicilərinin məcburi dövlət sosial sığorta haqlarını bankomat kartları vasitəsi ilə və ya banklarda nağd qaydada onlayn ödənilməsinə, vətəndaşların fonda elektron müraciət etmələrinə və digər elektron xidmətlərin fəaliyyət göstərməsinə geniş imkanlar açıb.

Naxçıvan Muxtar Respublikası elektron hökumət portalına ***(www.e-hokumet.nmr.az)*** Dövlət Sosial Müdafiə Fondunun 20 adda elektron xidməti inteqrə edilib. Fond tərəfindən göstərilən elektron xidmətlər pensiyaçılar, sığortaedənlər və sığortaolunanlar üzrə olmaqla üç istiqamətdə aparılır.

Məlumatda o da bildirilir ki, hazırda sığortaolunanın onlayn uçota alınması, əmək qabiliyyətinin müvəqqəti itirilməsinə, hamiləliyə və doğuma, uşağın anadan olmasına, uşağın üç yaşı tamam olanadək ona qulluq etməyə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi, sığortaolunanlara məlumatların verilməsi, pensiya kalkulyatoru, pensiya təyinatının və pensiya növünün dəyişdirilməsi üçün müraciətin və sənədlərin qəbulu, pensiyaçıya məlumatların verilməsi, məcburi dövlət sosial sığorta vəsaitlərinin onlayn ödənilməsi xidmətləri fəaliyyət göstərir.

Elektron xidmətlərdən istifadə etmək üçün ***dsmf.nakhchivan.az*** internet ünvanında yerləşdirilmiş elektron xidmətlər bölməsinə daxil olmaq lazımdır. Elektron xidmətlərdən istifadə ödənişsizdir. Digər elektron xidmətlərin də yaxın vaxtlarda fəaliyyət göstərməsi üçün fond tərəfindən müvafiq işlər aparılır.

**Xəbərlər şöbəsi**

***Yeni texnologiyalara əsaslanan ekoloji təmiz istehsal sahələrinin inkişaf etdirilməsinə müasir dünyada xüsusi diqqət yetirilir. Məsələ elektrik enerjisi kimi çox qiymətli maddi nemət olduqda, alternativ və bərpaolunan enerji mənbələrinin istifadəsi üzrə həyata keçirilən hər bir iş gələcəyin layihəsi kimi təqdirlə qarşılanmaqdadır. Bu baxımdan özünün son dərəcə təmizliyi və təhlükəsizliyi ilə seçilən Günəş elektrik stansiyalarına olan maraq hər keçən gün artmaqdadır.***

## Günəş elektrik stansiyasının tikintisi davam etdirilir

Babək rayonunun Xal-xal kəndi yaxınlığında tikintisinə başlanılmış 20 meqavat gücündəki Günəş elektrik stansiyası Naxçıvan Muxtar Respublikasının enerji təhlükəsizliyinə mühüm bir töhfə olacaqdır.

Artıq bir neçə aydır, inşasına başlanılmış stansiyada işlərin gedişi ilə tanış olmaq üçün obyektə baş çəkdik. Qeyd edək ki, elektrik stansiyası çox geniş bir ərazidə olacaq. Belə ki, ümumi sahəsi 35 hektar olan bir ərazidə quraşdırılacaq çərçivəsiz Günəş panelləri işıq enerjisini birbaşa elektrik enerjisinə çevirəcəkdir. Sıra ilə düzüləcək bu panellərin yerdən müəyyən hündürlükdə yerləşdirilməsi üçün hazırda metal dirəklərin basdırılması işləri davam etdirilir. Stansiyanın qurulması üçün Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi ilə müqavilə bağlamış Belçika Krallığının "Soltech" şirkətinin mütəxəssisləri ilə söhbətdən məlum oldu ki, zəmin hazırlama prosesi olan bu əsas mərhələdə artıq xeyli iş görülüb. Qeyd edək ki, 5 ərazini əhatə edən stansiyada



hər biri 255 vatt gücündə ümumi sayı 78 min 683 ədəd olan Günəş panelləri quraşdırılacaqdır. Bundan əlavə, stansiyada sabit cərəyanı dəyişən cərəyana çevirən 21 invertor və 11 transformator da quraşdırılacaqdır. İstehsal olunan elektrik enerjisi yaxınlıqdakı 110 kilovoltluq "Xal-xal" transformator yarımstansiyası vasitəsilə muxtar respublikanın elektrik enerjisi şəbəkəsinə ötürüləcəkdir.

Ekoloji təmiz enerji mənbələrindən istifadə olunması muxtar respublikamızın təbii sərvətlərinin iqtisadi dövriyyəyə cəlb edilməsinin ən yaxşı yollarından biridir. Naxçıvanın hidroenerji potensialı ilə bərabər, günəşli və küləkli günlərin sayı da bu potensialı artırır. Muxtar respublika ərazisində günəşli saatların orta illik miqdarının 2600-2800 saat təşkil etməsi hazırda tikintisi davam etdirilən Günəş elektrik stansiyasında bu işlərin uğurla yerinə yetirilməsinə imkan verir. Aparılan işlər onu deməyə əsas verir ki, Günəş elektrik stansiyası muxtar respublikanın enerji istehsalında alternativ enerji mənbələrinin ümumi payını xeyli artıracaq, ucuz elektrik enerjisi istehsalına imkan verəcəkdir. Naxçıvanın sahib olduğu müasir inkişaf səviyyəsi artıq belə layihələrin reallaşdırılmasına şərait yaradır.

**Əli CABBAROV**

*Bu rayonu ulu öndər Heydər Əliyevin yadigarı adlandırırlar. Bura o bölgəmizdir ki, sovet dönəminin 80-ci illərində muxtar respublikanın qabaqcıl kənd təsərrüfatı rayonu kimi ad çıxarmış, o zaman ən gəlirli sahə sayılan pambıqçılığın və üzümçülüyün bayraqdarına çevrilmişdi. Zaman o zaman oldu ki, Sovet İttifaqı dağıldı, rayonun iqtisadiyyatı məhvə sürükləndi. Ancaq rayon sakinləri inandılar ki, öz əli ilə qurub-yaratdığı rayonu dahi rəhbər köməksiz, tənha qoymayacaq, böyük iqtisadi potensiala malik Babək rayonunun da taleyi etibarlı əllərə, qurub-yaradan insanlara, sözün həqiqi mənasında, Vətənini, elini-obasını sevənlərə, insanların qayğısına qalanlara tapşırılacaq. Belə də oldu, rayon sakinlərinin ümidləri özünü doğrultdu, böyük rəhbərimiz muxtar respublikanın bütün bölgələri kimi, Babək rayonundan da qayğısını, diqqətini əsirgəmədi.*

# Sosial-iqtisadi inkişafın yeni mərhələsi

## Babək



Dövlətə sədaqətli, torpağa dərin məhəbbətlə bağlı, doğma elobasını cənnətə döndərmək istəyən insanların, aydın məqsədli vətən oğullarının minbir zəhməti nəticəsində rayon yenidən ölkəmizin ən inkişaf etmiş bölgələrindən birinə çevrildi. Rayon əhalisini illərdən bəri narahat edən sosial problemlər həll olundu, insanların firavan yaşayışı təmin edildi, ailələrin məişət qayğıları öz həllini tapdı. Nəinki qarşılaşılan, hətta qarşılaşılması mümkün olan çətinliklər belə profilaktik tədbirlər sayəsində müvəffəqiyyətlə aradan qaldırıldı. Sanki hansısa bir rəssam rayonun sovetlər dönəminin son illərində və müstəqilliyimizin ilk illərində, sadəcə, cansız rənglərdən ibarət olan mənzərəsini dəyişdirdi, bu mənzərəni al-əlvan rənglərə boyadı.

Bu gün Babək rayonunun qəsəbə və kəndləri başdan-başa yenidən qurulur. Rayon sakinləri küçə və prospektlərdə, park və xiyabanlarda, əkin sahələrində elə həvəslə, elə canla-başla işləyirlər ki, insan heyranlığını gizlədə bilmir. Hər əkilən ağacın, hər gül-çiçək kolunun başına pərvanə kimi dolanan sakinlər bu rayonu muxtar respublikanın ən gözəl bölgəsinə çevirmək üçün əllərindən gələni əsirgəmirlər. Babək rayonunda diqqətçəkən təkcə abadlıq, quruculuq sahəsində qazanılan uğurlar deyil. Yeni istehsal və emal müəssisələrinin yaradılması, çox sayda iş yerlərinin açılması, əhalinin sosial problemlərinin həll edilməsi, aqrar sahədə dinamik inkişafa nail olunması son illərin uğurlarındandır.

Rayonun yaranma tarixinə qısa nəzər salaraq qeyd etmək yerinə düşər ki, ulu öndərimizin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı quruculuq tədbirlərinin, Azərbaycanın dağ və sərhəd rayonlarının daha da möhkəmləndirilməsi siyasətinin məntiqi nəticəsi kimi ortaya çıxan, 1978-ci il oktyabrın 23-də təşkil olunan yeni rayona mərkəzi hakimiyyətin iradəsinin əksinə olaraq, Babək adının verilməsi görkəmli dövlət xadimi Heydər Əliyevin qətiyyətinin, milli yaddaşın bərpası istiqamətində həyata keçirdiyi taleyüklü tədbirlərin nəticəsi idi.

1993-2003-cü illərdə ulu öndər Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasında aqrar islahatların və onun mühüm tərkib hissəsi olan torpaq islahatlarının aparılması, kənd təsərrüfatı məhsulları istehsalçılarının maddi rifah halının yüksəldilməsi, istehsal şəraitinin yaxşılaşdırılması, uzun illərdən bəri Azərbaycan əkinçisinin torpaq mülkiyyətçisi olması arzusunun reallaşdırılması, yeni torpaq-əkinçi münasibətlərinin formalaşdırılması müasir tariximizin ən önəmli səhifələrindən biridir. Aqrar islahatlar nəticəsində muxtar respublikada, eləcə də Babək rayonunda torpaq üzərində üç mülkiyyət forması müəyyənləşdirildi. Rayonun torpaq fondunu təşkil edən 76 min 32 hektar torpaq sahəsindən 20 min 821 hektar dövlət mülkiyyətində saxlanıldı. 42 min 700 hektar torpaq sahəsi bələdiyyə mülkiyyətinə verildi, 12 min 511 hektar isə xüsusi mülkiyyətə ayrıldı. Bu islahatlar həm də rayonda məşğulluq probleminin həllində mühüm rol oynadı. Təkcə bir faktı qeyd etmək yerinə düşər ki, 1978-ci ildən indiyə qədər 40-dan çox nasos stansiyası, 50-dək subartezian quyusu tikilərək və ya əsaslı təmir olunaraq istifadəyə verilib, 7 su anbarı yaradılıb. 2005-ci ildə ulu öndərin adını daşıyan su anbarı istifadəyə verildikdən sonra rayonun 13 min 869 hektar sahəsinin suvarılması təmin olunub, 4 min 364 hektar yeni sahə əkin dövriyyəsinə daxil edilib.

Bu gün Babək rayonu regionun kənd təsərrüfatı və sənaye məhsullarının istehsalı üzrə ixtisaslaşmış bölgəsi kimi tanınır, muxtar respublikada kənd təsərrüfatı məhsullarının istehsalına görə öncül yerlərdən birini tutur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın qəbul edildiyi 2008-ci illə müqayisədə bitkiçilik və heyvandarlıq məhsullarının həcmində böyük artım müşahidə olunub. Uzunoba Su Anbarının yenidən qurulması, Cəhri və Güznüt kəndlərində drenaj xətlərinin, Xal-xal kəndində suvarma su xəttinin çəkilişinin başa çatdırılması rayonda aqrar sahəyə marağı daha da artırıb, əkinçilikdə və heyvandarlıqda böyük nailiyyətlər əldə edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası istiqamətində həyata keçirilən tədbirlər Babək rayonunda meyvəçiliyin və tərəvəzçiliyin inkişafına böyük imkanlar yaradıb. 2014-cü ildə rayon ərazisindəki 492,7 hektar meyvə bağlarından 4891 ton məhsul əldə edilib, 1932 hektar tərəvəz sahələrindən 16287 ton tərəvəz toplanılıb. "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin icrasına da rayonda xüsusi diqqət yetirilir. Bunun nəticəsidir ki, 2014-cü ildə rayonun barverən 326,6 hektar üzüm bağlarından 5332 ton məhsul yığılıb.

Qeyd edək ki, təkcə ötən il iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 62417,2 min manat investisiya yönəldilib. Rayonda həyata keçirilən tikinti-quruculuq tədbirləri Azərbaycanın istənilən bölgəsinə nümunə gücündədir. Bəhs olunan dövrdə tikinti-quraşdırma işlərində istifadə olunan investisiyaların həcmi 58339,6 min manat təşkil edib. Tikinti-quraşdırma işlərinin həcminin ilbəil artması rayon əhalisinin nümunəvi şəraitdə yaşaması və işləməsinə imkan yaratmaqla bərabər, əhalinin məşğulluğunun təmin olunmasına, sosial rifah halının yaxşılaşmasına da öz töhfəsini verir.

Yol infrastrukturunun müasirləşdirilməsi istiqamətində Babək rayonunda həyata keçirilən tədbirlər bu bölgənin sosial-iqtisadi inkişafına güclü təkan verməklə yanaşı, yük daşınmasında maya dəyərinin aşağı düşməsinə, ucqar yaşayış məntəqələri ilə nəqliyyat əlaqələrinin yaxşılaşmasına və digər problemlərin həllinə səbəb olub. "Azərbaycanda avtomobil yolları şəbəkəsinin yenilənməsinə və inkişafına dair 2006-2015-ci illər üzrə Dövlət Proqramı"na uyğun olaraq, Babək rayonunda da kompleks tədbirlər həyata keçirilir. 2014-cü il fevralın 14-də Hacıvar-Vayxır-Sirab avtomobil yolunun istifadəyə verilməsi dövlət proqramının muxtar respublikamızın bütün bölgələri kimi, Babək rayonunda da uğurlu icrasından xəbər verir. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il avqustun 27-də imzaladığı Sərəncamla yenidən qurulması həyata keçirilən Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolu rayonun, eləcə də adıçəkilən kəndlərin sosial-iqtisadi inkişafında yeni perspektivlər açacaq.

Babək rayonunda həyata keçirilən kompleks quruculuq tədbirləri bütün yaşayış məntəqələrini əhatə edir. Yeni kənd və xidmət mərkəzlərinin, abad yolların, məktəb binalarının və səhiyyə müəssisələrinin tikintisi müasir Babək rayonunun inkişaf və tərəqqisindən xəbər verir. Yeni yollar, məktəb binaları, kənd və xidmət mərkəzləri əhalinin rifah halının yaxşılaşmasına göstərilən qayğının təzahürüdür. Təkcə bir faktı qeyd edək ki, rayonda 2001-ci ildən sonra 30-dan çox məktəb binası tikilərək və ya yenidən qurularaq istifadəyə verilib, təhsil ocaqları müasir avadanlıqlarla təchiz edilib, kəndlərin əksəriyyəti müasir yaşayış məntəqələrinə çevrilib. Babək qəsəbəsindən tutmuş ucqar dağ kəndlərinə qədər yaşayış məntəqələri elektrik enerjisi, mavi yanacaq, içməli və suvarma suyu ilə tam təmin olunub. Elektrik enerjisindən söz düşmüşkən qeyd edək ki, ölkə rəhbərinin himayəsi ilə bu rayonda tikilib istifadəyə verilən Naxçıvan Modul Elektrik Stansiyası, Naxçıvan Qaz-Turbin Elektrik Stansiyası muxtar respublikanın elektrik enerjisi ilə təminatında mühüm rol oynayır. Bundan başqa, rayonun qəsəbə və kəndlərinin keyfiyyətli poçt və rabitə xidmətindən yararlanması üçün təxirəsalınmaz tədbirlər həyata keçirilib.

Yaxın keçmişə qısa bir ekskurs etsək görərik ki, erməni işğalçılarının 1990-1991-ci illərdə Babək rayonunun Yuxarı Buzqov, Gərməçataq kəndlərinə hücumu zamanı bu yaşayış məntəqələrinə xeyli ziyan dəymişdi. Yuxarı Buzqovda kitabxana binası, Aşağı Buzqovda mədəniyyət evi, Gərməçataq kəndində klub və kitabxana binaları istismara yararsız hala düşmüşdü. Həmin kəndlərdə əhaliyə məxsus yaşayış evlərini və ictimai binaları top mərmiləri dağıtmışdı. O günləri acı bir xatirə kimi yada salan Aşağı Buzqov kənd ziyalısı Zəhra Hüseynova deyir ki, əgər ulu öndərimiz 1990-cı ildə Naxçıvana qayıtmasaydı, nəinki Buzqov və Gərməçatağın, hətta bütün muxtar respublikanın qaranlıq günləri davam edəcəkdi. O gəldi və bizi bu bəladan xilas etdi. İndi dünyada baş verən proseslərə diqqət yetirəndə, bir sıra ölkələrdə tökülən qanların səbəbinin məhz anarxiya, vətəndaş qarşıdurması olduğunu görəndə ulu öndərimizi böyük minnətdarlıqla xatırlayır, Onun Azərbaycan, eləcə də Naxçıvan üçün etdiklərinin nə qədər əvəzolunmaz olduğunu bir daha dərk edirik. İndi Yuxarı Buzqov və Gərməçataqda ulu öndərimizin işıqlı ideyalarının davamçıları tərəfindən görülən işlər nəticəsində o qanlı-qadalı illərin izlərindən əsər-əlamət qalmayıb, hər şey təzələnib, yeni binalar tikilib, yollar çəkilib. Kəndlərimiz fasiləsiz elektrik enerjisi ilə təmin olunur. İndi hər evdə qışın soyuğundan, şaxtasından bizi qoruyan mavi alov şölələnir.

Babək qəsəbə sakini Vaqif Hüseynov bizimlə söhbətində bildirdi ki, ötən müddətdə rayonda bütün sahələrdə quruculuq tədbirləri həyata keçirilib. Sovet dönəmində 20 ildə görülən işlər Naxçıvanın 20 illik intibah dövrünün bir ilində görülən işlərin kölgəsində qaldı. Bu nailiyyət muxtar respublika Ali Məclisi Sədrinin Naxçıvanın bölgələrinin inkişafı naminə həyata keçirdiyi düşünülmüş, məqsədyönlü, ardıcıl fəaliyyətin nəticəsidir.

*İllər keçdikcə, Babək rayonu da çiçəklənir, inkişaf edir. Muxtar respublikanın bütün bölgələri kimi, bu rayon da intibaha gedən yolda qətiyyətlə addımlayır.*

✍ **Səbuhi HÜSEYNOV**

*İstehsal müəssisələri*

# "Araz" Parket Fabrikində yeni istehsal sahəsi yaradılıb

***Muxtar respublikamızda sahibkarlara güzəştli kreditlərin verilməsi, müasir texnologiyaların tətbiqi, rəqabətqabiliyyətli, xüsusilə ixracyönümlü məhsulların istehsalı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.***



Naxçıvan şəhərində fəaliyyət göstərən Naxçıvan "Araz" Parket Fabriki də son illər həyata vəsiqə alan istehsal müəssisələrindəndir. Müəssisə inşaat obyektlərinin taxta və parket məmulatlarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi zərurətindən yaradılıb. Bu istehsal müəssisəsi də özəl bölməyə göstərilən dövlət qayğısından bəhrələnib. Parket fabrikinin inşa olunması, müasir texnoloji avadanlıqların alınması üçün 2010-cu ilin mart ayında Sahibkarlığa Kömək Fondundan 250 min manat dövlət maliyyə dəstəyi göstərilib. Naxçıvan şəhərində 3500 kvadratmetr torpaq sahəsi ayrılıb ki, burada da müasir layihə əsasında yeni bina inşa olunub. Fabrikdə ayrı-ayrı iş otaqları, 5 istehsal sexi, xammal və hazır məhsulların saxlanılması üçün anbar, yeməkxana və digər yardımçı otaqlar tikilib istifadəyə verilib. Müəssisədə Almaniya istehsalı olan avadanlıqlar quraşdırılıb, yüksəkkeyfiyyətli məhsul istehsal etmək üçün hər cür şərait yaradılıb.

Naxçıvan "Araz" Parket Fabrikində qurulmuş avadanlıqların gündəlik istehsal gücü 900 kvadratmetrdir. Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən uyğunluq sertifikatı ilə təmin olunmuş müəssisədə hazırda tələbata uyğun müxtəlif çeşidlərdə məhsullar istehsal olunur.

2010-cu ilin iyul ayından fəaliyyətə başlayan müəssisədə parket istehsalı sahəsində 10 nəfər təcrübəli mütəxəssis çalışır. Fabrikdə işçilərin sağlamlığının mühafizəsi də diqqət mərkəzində saxlanılır. Burada xüsusi havatəmizləyici qurğu quraşdırılıb. Daxili bazarın keyfiyyətli yerli tikinti materialları ilə təmin olunması istiqamətində həyata keçirilən kompleks tədbirlər cari ildə də uğurla davam etdirilib, Naxçıvan "Araz" Parket Fabrikində plastik qapı-pəncərə istehsalı sahəsi yaradılıb. Müəssisədə Türkiyə istehsalı olan müasir texnoloji avadanlıqlar alınıb quraşdırılıb və həmin avadanlıqların idarə olunması üçün mütəxəssislər hazırlanıb. Ümumilikdə, yeni istehsal sahəsinin yaradılmasına və müasir texnoloji avadanlıqların alınmasına 120 min manat vəsait sərf olunub. Bu istehsal sahəsinin yaradılması daxili bazarı müxtəlif çeşiddə yerli inşaat materialları ilə təmin etməklə yanaşı, əhalinin məşğulluğunun artırılmasına da şərait yaradıb, ilkin olaraq 4 nəfər mütəxəssis daimi işlə təmin edilib.

Fabrikdə quraşdırılmış müasir avadanlıqlar xammalın qəbulundan tutmuş satışa çıxarılmasınadək bütün texnoloji proseslərə ciddi əməl olunmasına imkan verir. Parket istehsalı üçün lazım olan material xammal şəklində Türkiyə və Ukrayna respublikalarından alınıb gətirilir. İstehsal müəssisəsinə xammal şəklində daxil olan palıd, fıstıq və cökə ağacları ilkin olaraq emal sexində 5-8 santimetr qalınlığında kəsilib müəyyən ölçülərə salındıqdan sonra hər birinin tutumu 90 kubmetr olan 2 qurutma sexinə yığılır. Ağacın növünə uyğun olaraq, onun neçə dərəcə istilikdə və hansı müddətdə qurudulması, rütubəti və soyudulması kompüterdə proqramlaşdırılıb. Qurudulmuş parket, taxta lambirin və döşəmə taxtası yarımfabrikat halında son istehsal bölümünə daxil olur. Kompüterlə idarə olunan müasir texnoloji avadanlıqlarda taxtaların yan tərəfində şovlar açılıb hamarlanaraq növbəti mərhələdə paketlənib anbara təhvil verilir. Yaxın vaxtlarda ağac kəsimi avadanlığının alınması və yerli xammaldan səmərəli istifadə etməklə parket və taxta məmulatlarının istehsalı nəzərdə tutulur.

Müəssisədə istehsal olunan məhsullar Naxçıvan Muxtar Respublikasında, ölkəmizin paytaxtı Bakı şəhərində və ayrı-ayrı regionlarda satışa çıxarılır. Yüksək keyfiyyət göstəriciləri ilə seçilən məhsullar qiymət baxımından da istehlakçıların mənafeyinə uyğundur. Belə ki, Naxçıvan "Araz" Parket Fabrikinin istehsalı olan parketin 1 kvadratmetri, orta hesabla, 25 manata satılır.

Müəssisədə istehsal olunan məhsulların xarici bazarlara çıxarılması və tanıdılması istiqamətində işlər aparılır.

✍ **Kərəm HƏSƏNOV**

# Naxçıvan dünən və bu gün

***Bizim yaşadığımız günlərdə işsizlik bir sosial bəladır. Biz ona bekarçılıq da deyirik. Bu, adamların həyat tərzini, əhval-ruhiyyəsini korlayır, ailələri miskin vəziyyətə salır. Bir neçə il əvvəl mətbuatdan bizə aydın olurdu ki, xarici ölkələrdə işsizlər hər ay dövlətdən müavinət alırlar. İndi isə bizdə belə bir dövr və şərait yaranıb. Bazar iqtisadiyyatı və qiymətlərin bahalaşması, hələ heç bir ölkədə görünmədiyi bir səviyyəyə qalxması blokadada yaşayan muxtar respublika əhalisinin güzəranını çətinləşdirir. Belə bir şəraitdə işsizlik getdikcə artır. Bu gün adamlar güzəranın çətinləşməsi problemi ilə üz-üzə dayanıblar.***

*Günün problemi*

## İşsizlik

Bəs işsizlər necə etsin? Cüzi yaşayışını necə qursun? Bu, dözülməz vəziyyətdir. Naxçıvan Muxtar Respublikası Əmək və Məşğulluq İdarəsinin rəisi Vilayət Vəli oğlu Qasımov ilə bu barədə söhbət edirik. Fikir mübadiləsindən sonra bu idarənin hüquq və vəzifələri aydın olur. İdarənin vəzifəsi işləyən əhalinin əmək məsələləri və işsizlərin sosial müdafiəsi ilə məşğul olmaqdır. Yəni işsizləri işə düzəldirlər, onlara müavinət ödəyirlər. Eləcə də peşəyönümünə cəlb edirlər, həm də yeni iş yerlərinin açılması üçün kiçik müəssisələr yaradırlar.

İşsiz o adam sayılır ki, ona işsiz statusu təyin edilir. Bu status muxtar respublikanın şəhər və rayonlarının yerli sosial müdafiə mərkəzlərində Azərbaycan Respublikasının müvəqqəti əsasnaməsinə görə təyin edilir.

İdarə tərəfindən arayış: 1 yanvar 1994-cü ilə muxtar respublikada 4391 nəfər işsiz statusu alıb. Bununla yanaşı, həmin tarixə 6802 nəfər işaxtaran qeydiyyatda durur. 581 nəfər isə hazırda müavinət alır. Bunlar qeydiyyatda duranlardır. Amma muxtar respublika Dövlət Statistika İdarəsinin verdiyi məlumatdan görünür ki, bu ilin əvvəlinə muxtar respublikada 140 min 500 nəfər əmək qabiliyyətli adam var. Bu adamların 64 min 223 nəfəri işləməyən vətəndaşlardır. Yaxud iş yerlərini itirənlərdir. Əsas sual da buradan doğur. Minlərlə adamı iş yerindən uzaqlaşdıran səbəblər hansılardır? Əlbəttə, ən əvvəl son illərdə muxtar respublikamızın erməni təcavüzkarları tərəfindən blokadaya alınması və bu hesaba müəssisə və təşkilatlara xammal, material və ehtiyatların daxil olmamasıdır. Zavodlarda, fabriklərdə istehsal prosesləri dayandığından iş yerləri də ixtisar edilmişdir. İndi müəssisələr bu adamların hamısını işlə təmin etmək iqtidarında deyil.

İdarə rəisinin dedikləri:

– Çoxlu adam müəssisələrdə işsiz qalıb. Çoxları da əmr verilib işdən azad olunmayıblar. Məsələn, Naxçıvan Alt Trikotaj Paltarları Fabrikində, avtonəqliyyat birliyində və digər müəssisə və təşkilatlarda işçilər minimum əməkhaqqı alırlar. Belələri bizə müraciət edirlər. Lakin onlara kömək edə bilmirik. Həm də müavinət vermək üçün əlavə mənbələr yoxdur. Vəsaitimiz çatışmır. Muxtar respublikanın idarə, müəssisə və təşkilatları əməkhaqqı fondundan hər ay 2 faiz məcburi ayırmaları bizim hesabımıza keçirirlər. 1993-cü ildə cəmi 40 milyon rubl bu hesaba vəsait yığılıb. Bu isə muxtar respublikanın tələbatını ödəmir.

Azərbaycan Respublikasında əhalinin məşğulluğu haqqında qanuna görə, yerli icraiyyə komitələri işsizləri müəyyən xərclərdən, kommunal mənzil xərcləri ödəməkdən azad edə bilərlər. Bu məsələni biz muxtar respublikanın Nazirlər Kabineti səviyyəsində qaldırmışıq. Lakin əməli nəticəsi olmayıb. Müavinət alanlardan ailə vəziyyəti ağır olanlara yerli icra hakimiyyəti orqanları pul keçirməklə onların müavinətinin həcmini artırmaq olar. Biz məsələ qaldırmışıq ki, işsizlərə 6 ay əvəzinə 1 il müavinət verək. Lakin bu məsələnin də həllinə nail ola bilməmişik. Yeri gəlmişkən bir faktı yada salmaq istərdim. 1990-cı ilin əvvəllərində Amerikada avtomobil kampaniyaları “Ford”, “General Motors”, “Kraysler” və bu kimi sahələrdə ağır vəziyyət yarandığından fəhlələr ixtisar edildi. İşsiz qalanların başqa sahələrdə işləməsi üçün kampaniyaların özü fəhlələrə peşələrini dəyişməyə kömək etdi. Bundan sonra ABŞ konqresi fəhlə qüvvəsinin yenidən hazırlanması haqqında qanun qəbul etdi. Azərbaycan Respublikasında isə əhalinin məşğulluğu haqqında qanun 27 iyun 1991-ci ildə qüvvəyə minib. Və bu qanun Rusiya, Fransa və digər xarici dövlətlərin qanunlarından istifadə olunmaqla hazırlanıb. Bizim qanunun özündə boşluqlar var. Məsələn, orada göstərilir ki, işsiz kimi qeydiyyatda duran hər kəs ayda iki dəfə təkrar qeydiyyatdan keçməlidir. İndi bu qanuna görə, muxtar respublikanın rayon və kəndlərində yaşayan adamlar xeyli nəqliyyat xərci çəkib rayon mərkəzlərinə qeydiyyatdan keçməyə gəlirlər. Məşğulluq İdarəsi məsələ qaldırıb ki, işsizlər ayda bir dəfə qeydiyyatdan keçsin. Bu məsələ də öz həllini gözləyir.

İkinci bir çətinlik müavinət pullarının vaxtında ödənilməməsidir. Çünki yerli əmək və məşğulluq mərkəzləri bu pulu banklardan götürürlər. Bankda isə nağd pul çatışmır. Buna görə də son aylar Şərur və Şahbuz rayonlarında işsizlər müavinətlərini vaxtında ala bilməmişlər.

Xüsusi iş yerlərinə normanı yerlərdə icraiyyə komitələri təyin edir. Çoxuşaqlı qadınlar, gənclər, əlillər üçün iş yerləri təyin olunur. Bu normanı icraiyyə komitələri təsdiq edirlər. Lakin idarə, müəssisə və təşkilatlar bu qərarı yerinə yetirmirlər. Həm də məşğulluq mərkəzlərini eşitmirlər. İdarə, müəssisə, təşkilatlar boş qalmış iş yerləri haqqında məşğulluq idarəsinə məlumat vermirlər. Qanunun özündə də bu boşluq özünü göstərir. Azərbaycan Respublikasının Nazirlər Kabineti sərəncam verib ki, boş iş yerləri məşğulluq idarələrinə bildirilsin. Bu idarələr isə təklif veriblər ki, boş yerlər barədə məlumat verməyən təşkilat rəhbərlərini əməkhaqqının 10 misli həcmində cərimə etsinlər. Bu barədə təklif hələ də qüvvəyə minməyib. Bu da bir problem yaradır.

Müharibə gedən ölkədə istehsal prosesləri pozulduğundan getdikcə işsizlərin sayı artır. Amma həlli mümkün olan məsələlərə muxtar respublikanın yerli icraiyyə komitələrinin laqeyd münasibət bəsləməsi bir çox ailələrin güzəranını aşağı salmış, əhalinin əksər hissəsi kasıblıq həddində yaşayır. Bazar iqtisadiyyatı əhalinin bu qəbildən olan hissəsinin sosial müdafiəsini yaxşılaşdırmaq üçün əlavə tədbirlər hazırlanmasını qarşıya qoyur. Lakin respublikamızın torpaqlarında müharibə getdiyindən hələlik adamların ümid ilə yaşamasından başqa çarəsi yoxdur.

**“Şərq qapısı”**
***9 fevral 1994-cü il***

Qədim Azərbaycan torpağı olan Naxçıvanın tarixdə çox enişli-yoxuşlu yolları olub. Bu yollarda addımlamaq çətin və mürəkkəb olsa da, qədim diyarın insanları hər zaman gələcəyə nikbin baxıb, tarixin dolanbac yollarında inamla və qürurla irəliləməyi bacarıb. Keçmişdən fərqli olaraq müasir dünyanın reallıqları çərçivəsində ən son yaşanmış çətinliklərin tarixi ilə bizi cəmi 20 ildən bir az artıq zaman ayırır. İndi ötən əsrin sonlarında muxtar respublikadakı ictimai-siyasi vəziyyəti, problemlər burulğanında varlığını sürdürməyə davam etdirən bir məmləkətin dərdsərini “Şərq qapısı” qəzetinin ağqaralı səhifələrindən oxuyur və xatırlayırıq. 20-25 il bundan əvvəl qələmə alınmış həmin yazılar intibah Naxçıvanının müasir sakinlərinin düşüncəsində dünənlə bu gün arasındakı kəskin fərqi müqayisə etməyə yetərincə imkan verir.

*Günün reallığı*

## İntibaha qovuşan Naxçıvanda işsiz yoxdur



İnkişaf etmiş və ya etməkdə olan ölkələrdə davamlı inkişaf üçün əsas vacib məsələlərdən biri əhalinin məşğulluğunun təmin edilməsidir. Məşğulluq məsələləri bazar iqtisadiyyatının əsas prinsiplərindəndir. Bu sahənin inkişaf etdirilməsi iqtisadi fəallığın artırılması, eyni zamanda əhalinin daim artan ehtiyaclarının ödənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Ancaq son illərdə dünyanın iqtisadi sferasında baş verən dəyişikliklər bir daha onu göstərir ki, hətta ən inkişaf etmiş ölkələr belə, işsizlik problemlərindən sığortalanmayıb. Buna görə də düzgün məşğulluq siyasətinin həyata keçirilməsi nəticəsində yoxsulluq və işsizlik səviyyəsinin minimuma endirilməsi bu gün istənilən ölkə üçün aktual məsələlərdən hesab olunur. Məhz bu prizmadan baxdıqda müasir iqtisadi şəraitdə dövlətimizin makroiqtisadi siyasətinin əsas məqsədlərindən birinin əmək qabiliyyətli əhalinin məşğulluğunu yüksək səviyyədə təmin etməkdən ibarət olduğu bir daha görünür. 20 il bundan əvvəl ölkəmizdə, eləcə də muxtar respublikamızda yaranmış ictimai-siyasi-iqtisadi vəziyyəti çoxlarımız xatırlayırıq. Sübuta ehtiyacı olmayan faktdır ki, ictimai və siyasi sabitliyi olmayan və ya kövrək olan regionlarda iqtisadi vəziyyətin ürəkaçan olmaması normaldır. Ümummilli lider Heydər Əliyevin ötən əsrin 90-cı illərində Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi milli dövlətçiliyimizin möhkəmləndirilməsinə, muxtar diyarın ərazi bütövlüyünün qorunmasına şərait yaratdı, burada yaşayan insanların sabaha olan ümidlərini artırdı. Böyük şəxsiyyətin 1993-cü ilin iyun ayında xalqın təkidli tələblərindən sonra ali hakimiyyətə qayıdışı cəbhədə atəşkəsin, ölkədə sabitliyin bərqərar olmasına imkan verdi. Təbii ki, 1988-ci ildən başlayan qarışıq siyasi proseslərin 1993-cü ilin ortalarından etibarən səngiməsi, 1994-cü ildə isə atəşkəsin əldə olunması, “Əsrin müqaviləsi”nin imzalanması ölkədə yeni iqtisadi proseslərin başlanmasını zəruri edirdi. Bu dövrədək Azərbaycanda iqtisadiyyatın çöküşü təbii ki, ölkədə böyük bir işsizlər ordusunun yaranmasına, eyni zamanda paralel olaraq iqtisadi sektorların müflisləşməsinə gətirib çıxarmışdı. Əlbəttə ki, muxtar respublikanın da iqtisadi durumu acınacaqlı idi. İşsizlik, az sayda işləyən müəssisələrdə maaşların aylarla gecikdirilməsi, gənclərin iş dalınca başqa ünvanlara üz tutması həmin dövrün Naxçıvanının gerçək reallığı idi. Bu yaxın tarix indi də naxçıvanlıların yadından çıxmayıb. Ancaq o günlərin mənzərəsini “Şərq qapısı” qəzetinin 9 fevral 1994-cü il tarixli sayında dərc olunmuş “İşsizlik” adlı yazıda bir daha xatırlayırıq. Həmin işsizlik dövründə əsas işi dövrün



mənzərəsini təsvir etmək olan həmkarımız o zaman Naxçıvan Muxtar Respublikası Əmək və Məşğulluq İdarəsindən verilən arayışı təqdim edərək göstərir ki, 1 yanvar 1994-cü ilə muxtar respublikada 4391 nəfər işsiz statusu alıb, 6802 nəfər işaxtaran qeydiyyatda durub, 581 nəfər isə müavinət alır. Muxtar respublikanın Statistika İdarəsinin verdiyi məlumatı qeyd edən müəllif göstərir ki, bu ilin (1994-cü ilin) əvvəlinə muxtar respublikada 140 min 500 nəfər əmək qabiliyyətli adam var. Bu adamların 64 min 223 nəfəri işləməyən və ya iş yerlərini itirən vətəndaşlardır. Məncə əlavə izaha ehtiyac yoxdur. Qeyd olunan rəqəmlər işsizlik faizinin, təxminən, 50 faizə yaxın olduğunu göstərir. Yazının müəllifi haqlı olaraq minlərlə insanı iş yerlərindən uzaqlaşdıran səbəblərin nə olduğunu sual kimi qarşıya qoyur. Və haqlı olaraq bunu muxtar respublikanın blokada vəziyyətinə salınması və nəticədə, burada fəaliyyət göstərən fabrik və zavodların, müxtəlif müəssisələrin fəaliyyətinin iflic vəziyyətinə düşməsi ilə əlaqələndirir. Təbii ki, istehsal olmayan yerdə işçiyə də ehtiyac duyulmur və bu, digər müəssisələrin də fəaliyyətinə təsir göstərir, nəticədə, işsizliyin “qapısı” açılır. Yuxarıda adıçəkilən Məşğulluq İdarəsindən bildirilib ki, bəzi müəssisələrdə işçilər işdən azad olunmasa da, onlar minimum əməkhaqqı alırlar. Bu cür işçilər müavinət üçün müraciət etsələr də, onlara heç bir kömək olunmur. Çünki idarə və təşkilatların əməkhaqqı fondlarından hər ay məcburi ayrılan 2 faiz məcburi



ayırmalar bunu ödəməyə imkan vermir, vəsait çatışmır, banklarda isə nağd pul yoxdur.

Yazıda bir maraqlı məqama da toxunularaq bildirilir ki, Azərbaycanda 1991-ci ildə əhalinin məşğulluğu haqqında qəbul edilmiş qanunun mükəmməl olmaması qarşıya müəyyən çətinliklər çıxarır. Qeyd etmək lazımdır ki, bu qanun mükəmməl şəkildə hazırlansaydı belə, həmin dövrdə onun icra mexanizmi yenə işlək olmayacaqdı. Çünki peşə hazırlığı ilə məşğul olan məktəblər artıq bir neçə il idi ki, fəaliyyətlərini dayandırmışdılar. Hətta müxtəlif peşələr üzrə kadrlar hazırlansaydı da, onları yenə də işlə təmin edəcək müəssisələr və yaxud xaricdəki kimi sahibkarlar olmayacaqdı. Yəni işsizlik problemi çox dərinə işləmişdi və kütləvi xarakter daşıyırdı. Yazının sonunda da deyildiyi kimi, insanların ümidlə yaşamaqdan başqa çarəsi yox idi...

İndi bizi həmin dövrdən 20 ildən bir az artıq zaman məsafəsi ayırır. Bu dövrdə Naxçıvan Muxtar Respublikasında məşğulluq problemlərinin həll olunması istiqamətində davamlı səylər öz müsbət nəticələrini verib. Əmək ehtiyatlarından daha dolğun istifadə etmək və əhalinin səmərəli məşğulluğunu təmin etmək məqsədilə 2007-ci il 30 may tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasında Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər)” təsdiq edilib. Dövlət proqramı ilə məşğulluq strategiyasının həyata keçirilməsi üzrə iqtisadi mühitin və əmək bazarının inkişafı, yeni iş yerlərinin açılması, əmək bazarında işçi qüvvəsinin keyfiyyətinin və rəqabət qabiliyyətinin yüksəldilməsi, işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində tədbirlər müəyyənləşdirilərək uğurla həyata keçirilib. Muxtar respublikada əhalinin işlə təmin olunmasında ən mühüm rolu sahibkarlığın inkişaf etdirilməsi və bunun da nəticəsində yeni istehsal sahələrinin yaradılması, kənd təsərrüfatının inkişaf etdirilməsi oynayıb. Göstərilən dövlət qayğısı sayəsində müxtəlif profilli sənaye müəssisələrinin yaradılması

*Ardı 4-cü səhifədə*



həm əhalinin yerli istehsal (ərzaq və qeyri-ərzaq) məhsullarına olan ehtiyacını ödəməyə imkan verib, həm də yeni iş yerlərinin açılmasına şərait yaradıb.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətindən verilən məlumata görə, əgər 1997-ci ildə muxtar respublikada 1528 nəfər qeydiyyata düşən işaxtarandan 237 nəfəri işə düzəlibsə, 10 il sonra, 2007-ci ildə 3864 nəfər işaxtarandan 2010 nəfəri işlə təmin olunub. Ötən il isə işaxtaran vətəndaşların sayı 3227, işlə təmin olunanların sayı isə 2727 nəfər olub. Nəzərə alaq ki, işaxtaranların sayının artmasına əhalinin say artımı, habelə bu və ya digər səbəblərdən bura gəlib yaşayanların sayının artması və sair amillər təsir edir. Əhalinin işlə təmin olunmasında peşə hazırlığı da mühüm rol oynayır. Peşə hazırlığı ilə məşğul olan baza müəssisələrində yaradılmış şəraitin nəticəsidir ki, muxtar respublikada 1997-ci ildə 89 nəfər peşə hazırlığına cəlb olunubsa, 2014-cü ildə bu say, təxminən, 5 dəfə artaraq 439 nəfər təşkil edib.

Adıçəkilən xidmətin məlumatlarında işsizlik statusu alanların sayının da ildən-ilə azalması diqqətçəkən məsələlərdəndir. Qeyd edək ki, 1997-ci ildə muxtar respublikada 202 nəfərə işsizlik statusu verilibsə, 2009-cu ildə bu rəqəm 39-a bərabər olub, 2012-ci ildən sonra isə bu statusu daşıyan şəxs olmayıb. Sosial və iqtisadi proqramların uğurlu həlli ildən-ilə daha çox yeni iş yerlərinin açılmasına səbəb olub: əgər 2013-cü ildə muxtar respublikada 2260 yeni iş yeri açılmışdısa və bu iş yerlərindən 2092-si daimi iş yerləri idisə, 2014-cü ildə 3523 yeni iş yeri yaradılıb ki, bunun da 3422-si və yaxud 97 faizi daimi iş yerləridir. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 1 aprel 2015-ci il tarixə muxtar respublikada əmək qabiliyyətli əhalinin sayı 302,5 min nəfər, məşğul əhalinin sayı isə 229,2 min nəfər təşkil edib. Həyata keçirilmiş məqsədyönlü tədbirlərin nəticəsində 1995-ci ildən 1 aprel 2015-ci il tarixədək muxtar respublika üzrə 83 min 697 yeni iş yeri yaradılıb ki, bunun da 56 min 964-ü daimi iş yerləridir.





Xatırlatmaq lazımdır ki, ötən müddət ərzində məşğulluq xidməti orqanları tərəfindən təşkil edilmiş əmək yarmarkalarının keçirilməsi də işaxtaranlar və işəgötürənlər arasında əhəmiyyətli rol oynayıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq olunmuş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın uğurlu icrası muxtar respublikada əmək bazarının tənzimlənməsi və əhalinin səmərəli məşğulluğunun təmin edilməsinə öz töhfələrini verir. Məsələn, cari ilin aprel ayında muxtar respublikada keçirilmiş əmək yarmarkalarına 177 müəssisədən 1702 boş iş yeri çıxarılıb və 332 nəfər işlə təmin olunub. İşlə təmin olunanlardan 121 nəfərini gənclər təşkil edib. Kvota üzrə işlə təmin olunanların sayı isə 10 nəfər olub. Muxtar respublikada əhalinin sosial rifahının gücləndirilməsi, yoxsulluğun azaldılması, məşğulluğun artırılması, ümumilikdə, insan potensialının qorunması və inkişaf etdirilməsi istiqamətində müvafiq tədbirlərin uğurla həyata keçirilməsi əhalinin maddi rifah halının davamlı olaraq yüksəlməsinə, vətəndaşların etibarlı sosial müdafiəsinin təşkilinə mühüm təsir göstərib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1 sentyabr 2014-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın ötən il olduğu kimi, yaxın üç il ərzində də uğurla həyata keçirilməsi məşğulluq məsələlərinin həllinə yeni töhfələr verəcəkdir.

***Bəli, ötən 20 il ərzində Naxçıvanda digər sahələrlə yanaşı, ən böyük sosial bəla hesab edilən işsizlik də öz həllini tapıb. Bir zamanlar işsiz qalanların indi özünə işçi axtardığının və yaxud Naxçıvana işləmək üçün gələnlərin çox şahidi oluruq. Demək istədiyimiz odur ki, müasir dövrdə istənilən şəxs özünün bilik və bacarığına uyğun münasib iş tapa bilər. İndi iş tapa bilməmək bilik, zəhmət, bacarıq və peşə vərdişi kimi meyarları özündə cəmləşdirə bilməyənlər və ya, sadəcə, işləmək istəməyənlər üçün çətin sayıla bilər. Və nəhayət, yaxın keçmişin qaranlıq dünyasından boylanan ümid dolu baxışlarda bu gün işsizliyə yer yoxdur. Çünki cəmiyyətimizdə də artıq bekar adamlar sevilmir.***

**✍ Səbuhi HƏSƏNOV**

# On bir ayın sultanı



***Oruc Adəm Peyğəmbərdən bəri bütün peyğəmbərlərə və onların ümmətlərinə vacib buyurulmuş ibadətdir. Məsələn, Nuh Peyğəmbər bayram günlərindən başqa, bütün ilboyu, Davud Peyğəmbər isə günaşırı oruc tutarmış. Bu barədə “Qurani-Kərim”də “Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz!” deyə bildirilir (“əl-Bəqərə”, 183).***

### İslam dinində orucluq

Oruc tutmaq müsəlmanlara Uca Yaradan tərəfindən hicrətin ikinci ilində Şaban ayının on üçündə bəxş edilmişdir. Ramazana bəzən “orucluq ayı” anlamına gələn “Şəhri-Sıyam” da deyirlər. Ərəb mənşəli “savm” (cəmdə işləndikdə “sıyam”) kəlməsi Azərbaycan dilinə tərcümədə nəfsə hakim olmaq mənasındadır.

Ramazani-Şərif müsəlmanlar üçün çox müqəddəs və mübarək aydır. Çünki “Qurani-Kərim” bu ayda nazil olmağa başlamış, Məhəmməd Peyğəmbərə bu ayda peyğəmbərlik bəxş edilməklə İslam dini meydana gəlmişdir. İnsanları pis əməllərdən çəkindirən və axirətdə cəhənnəm əzabından qoruyan oruc ibadətinin bu ayda vacib buyurulması “Qurani-Kərim”də belə əks olunmuşdur: *“İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və (haqqı batildən) ayıran (“Quran”) Ramazan ayında nazil edilmişdir. Aya (Ramazan ayına) yetişən şəxslər (bu ayı) oruc tutmalıdırlar; xəstə və ya səfərdə olanlar isə tutmadığı günlərin sayı qədər başqa günlərdə tutsunlar...”* (“əl-Bəqərə”, 185).

Allah elçisi də hədislərindən birində Ramazan orucunun faydalarından bəhs edərkən demişdir: *“Kim inanaraq və mükafatını Allahdan gözləyərək Ramazan orucunu tutarsa, keçmiş günahları bağışlanar”.*

Oruc ibadətinin həm mənəvi, həm də sağlamlıq baxımından faydaları çoxdur. Bu ibadətin fəzilətlərindən biri insanlarda mərhəmət və xeyirxahlıq hislərini gücləndirməsidir. Orucluq həm də insana nemətlərin dəyərini öyrədir. Çünki insan sahib olduğunun dəyərini onu itirdikdən sonra bilir. Oruc tutmaqla bir müddət dünya nemətlərindən uzaq olan şəxs yenidən onları əldə etdikdə sevinir, həm də Allaha şükür etməyi öyrənir. Bu ibadət insanı sağlamlaşdırır. Çünki on bir ay ərzində çalışan insan orqanizmi orucluq vaxtı, bir növ, dincəlmiş olur. Müasir tibb elmi də oruc tutmağın faydalarını göstərmişdir. Oruc tutmaq insanlara səbirli və dözümlü olmağı öyrədir. Ay ərzində yemək, içmək və digər ehtiyaclardan imtina edən insan sonralar qarşısına çıxan əziyyətlərə də qatlaşa bilir.

Həddi-büluğa çatmış, ağlı yerində olan hər müsəlmana oruc tutmaq vacibdir. Üzrsüz səbəbdən oruc tutmamaq günahdır və cəzası (kəffarəsi) vardır (kəffarə bir gün bilərəkdən tutulmamış oruca görə iki ay ardıcıl oruc tutmaq və ya altmış yoxsulu doyuzdurmaqdır). Oruc tuta bilməyən əldən düşmüş və yaşlı şəxslər isə Ramazanın hər günü üçün fidyə verirlər. Fidyənin miqdarı fitrə qədərdir.

Bəzi üzrlü səbəblər vardır ki, oruc tutulmaya bilər, yaxud tutulmuş orucu pozmaq olar: xəstəlik, səfərə çıxmaq, məcburiyyət, insanı bihuş edən şiddətli aclıq, susuzluq, hamiləlik.

Orucun niyyət edilməsi zəruridir. Niyyətsiz oruc məqbul deyildir. Ramazan orucuna axşamdan obaşdanlığadək niyyət edilir (bəzi alimlərə görə, əgər unudularsa, günortayadək də niyyət etmək olar).

Obaşdanlığı (sahur) qalxıb yemək müstəhəbdir və Məhəmməd Peyğəmbər də hədislərində buna təşviq etmişdir: *“Obaşdanlıqda yemək yeyin, çünki onda bərəkət vardır”.*

Orucunu tamamlayıb iftar vaxtına yetişən şəxs bundan sevinərək özünü xoşbəxt hiss edər. Allah elçisi isə hədislərində oruclunun iki sevinc anının olduğunu müjdələmişdir. Biri iftar vaxtı, digəri isə bu ibadətinə görə Allahdan mükafatını alacağı vaxtdır.

Ramazan ayı bəzən 29, bəzən də 30 gün olur. Ay 29 gün davam edəndə də orucluq tam hesab edilir. Çünki vacib olan ayı bütünlüklə oruclu keçirməkdir. Məhəmməd Peyğəmbər doqquz Ramazan orucu tutmuş, onların dördü 29, beşi isə 30 gün davam etmişdir.

### Oruc tutan şəxsə hansı əməllər qadağandır?

Hər hansı qidanı qəbul etmək, siqaret çəkmək, yaxud qatı toz və ya tüstü udmaq, qəsdən qusmaq orucu batil edər (əlbəttə, qeyri-ixtiyari olaraq və ya xəstəlik nəticəsində qusmaq istisnadır).

Bundan başqa, bədənə imalə etdirmək də orucu pozar.

Kişi, yaxud qadın oruclu ikən qüsullu olmalıdır.

Oruclu bir kəsin suda çox qalması, ağıza girən yağışı və ya dolunu istəyərək udmaq orucu pozan əməllərdəndir.

### Orucu pozmayan əməllər

Unudaraq yeyib-içmək orucu pozmaz. Ancaq yemək yeyən kimsə oruclu olduğunu xatırlayınca yeməyi dərhal buraxıb ağzını yaxalamalıdır. Belə ki, oruclu olduğunu yadına saldığı andan etibarən heç bir şey yeməməyə diqqət etməlidir. Oruclu olduğunu yadına saldığı anda yeməyə davam edərsə, oruc batil olur.

Məhəmməd Peyğəmbər *“Oruclu olduğunu unudub yeyən-içən kimsə orucunu tamamlasın, onu Allah yedirtmiş, içirtmişdir”* buyurmuşdur.

Ağız suyunu, tüpürcəyi və ya bəlğəmi udmaq, gözə dərman salmaq, qan vermək, burnundan gələn selikli qişanı udmaq, boğazına çox olmamaqla toz girmək, istəməyərək su udmaq, çox olmamaqla duş qəbul etmək, gözlərə sürmə çəkmək, dərmanı və qanı udmamaqla diş çəkdirmək, dişləri fırçalamaq, udulmamasına diqqət etməklə su ilə ağızı yaxalamaq orucu pozmayan əməllərdəndir.

### Kimlərə oruc tutmaq vacib deyildir?

Dörd təbəqədən olan adamlar oruc tutmaya bilərlər; onlar həm qəza orucundan, həm də kəffarədən azaddırlar:

*- həddi-büluğa çatmamış uşaqlar;*
*- psixi cəhətdən qeyri-normal şəxslər;*
*- qocalıb əldən düşmüş şəxslər;*
*- aclıq və susuzluğa heç cür tab etməyən daimi xəstələr.*

Digər dörd təbəqədən olan şəxslər də Ramazan ayında oruc tutmaya bilərlər; bunun üçün onlara kəffarə də düşmür, sadəcə olaraq, itirdikləri hər gün əvəzinə bir gün qəza orucunun tutulması onlara vacibdir:

*- hamilə qadınlar. Onlar itirdikləri hər günün əvəzində ehtiyaclılara 750 qram yemək verməli, ana olduqdan sonra isə qəza oruclarını tutmalıdırlar;*
*- körpəsinə süd verən qadın (əgər oruc tutduğu təqdirdə südünün kəsiləcəyindən qorxarsa). Onlar da hər gün üçün 750 qram ehsan etməli, südvermə müddəti bitdikdən sonra qəza orucu tutulmalıdır;*
*- Ramazan ayında müvəqqəti xəstələnmiş şəxslərin səhhətinə oruc tutmaq təhlükə törədirsə, xəstə olduqları günlərdə orucdan azaddırlar. Əgər gələn ilin Ramazan ayına kimi sağalsalar, mütləq qəza orucu tutmalıdırlar. Əgər gələn ilə kimi sağalmasalar, qəza orucu vacib olmaz, yalnız hər gün üçün 750 qram ehsan etmələri kifayətdir;*
*- səfərdə olan şəxs vətənə dönənə kimi orucdan azaddır, amma qayıdandan sonra mütləq qəza orucu tutmalıdır (hər gün üçün bir gün hesabı ilə). Amma bəzi hallarda insan səfərdə də olsa, oruc tutmalıdır və orucu pozmağa ixtiyarı yoxdur.*

Hər kəs oruc tutduğunu unudaraq, yaxud özü istəmədən (qeyri-iradi) orucu pozan əməli yerinə yetirsə, orucu yenə düzgün sayılır və öhdəsinə heç bir cərimə düşmür. Məsələn, insan körpüdən keçərkən sürüşüb çaya yıxılsa və başı suya batsa, yaxud xəstələnib qussa, orucu tutduğunu unudub su içsə orucu pozulmaz.

Qeyd olunduğu kimi, oruc tutmağın məqsədi dini mükəlləfiyyəti icra etməklə Allahın əmrlərini yerinə yetirməkdir. Bununla yanaşı, orucun əxlaqi və ictimai baxımdan da faydaları vardır. Bu faydalar məhz oruc tutulan zaman insan tərəfindən öz dərin hikməti ilə fəhm edilir.

*Əziz müsəlman bacı və qardaşlarımız! Sizi Ramazan ayının başlanması münasibətilə təbrik edirik. Allah ibadətlərinizi qəbul eləsin.*

**Vüqar BABAYEV**
***Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi***

**İtmişdir**
Şahbuz rayon sakini Nuriyev Əzizalı Abdulhüseyn oğlunun adına verilmiş AO-0844265 seriya nömrəli hərbi bilet itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 483